**Bakı, Sumqayıt şəhərlərində və respublikanın bir sıra rayonlarında baş vermiş zəlzələnin nəticələrinin aradan qaldırılması tədbirləri haqqında**

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

2001-ci il noyabrın 25-də, saat 22.09 dəqiqədə episentri Bakı şəhərindən 100 km şimalda, Xəzər dənizində olmaqla, 12 ballıq şkala ilə 7,0 bal gücündə zəlzələ olmuşdur. Zəlzələ Bakıda və Sumqayıtda 6,0-6,5 bal, Siyəzən, Dəvəçi və Xaçmazda 6,0 bal, Şamaxıda 4,0-4,5 bal, Xəzər dənizinin sahilində yerləşən digər yaşayış məntəqələrində müxtəlif gücdə qeydə alınmışdır.

Təbii fəlakətin nəticələrinin aradan qaldırılmasını təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Aşağıdakı tərkibdə hökumət komissiyası yaradılsın:

**Komissiyanın sədri**

**Artur Rasizadə** - Azərbaycan Respublikasının Baş naziri

**Komissiya sədrinin müavini**

**Abid Şərifov** - Azərbaycan Respublikası Baş nazirinin müavini

**Komissiyanın üzvləri**

**Yüsif Hümbətov** - Azərbaycan Respublikası Prezidentinin İcra Aparatının Ərazi idarəetmə orqanları ilə iş şöbəsinin müdiri

**Namiq Abbasov** - Azərbaycan Respublikasının milli təhlükəsizlik naziri

**Namiq Nəsrullayev** - Azərbaycan Respublikasının iqtisadiyyat naziri

**Əvəz Ələkbərov** - Azərbaycan Respublikasının maliyyə naziri

**Səfər Əbiyev** - Azərbaycan Respublikasının müdafiə naziri

**Ramil Üsubov** - Azərbaycan Respublikasının daxili işlər naziri

**Əli İnsanov** - Azərbaycan Respublikasının səhiyyə naziri

**Misir Mərdanov** - Azərbaycan Respublikasının təhsil naziri

**Nadir Əhmədov** - Azərbaycan Respublikasının rabitə naziri

**İslam Tağıyev** - Azərbaycan Respublikası Dövlət Geodeziya və Mineral Ehtiyatlar Komitəsi sədrinin birinci müavini

**Yevgeni Şelaginov** - Azərbaycan Respublikası Dövlət Tikinti və Arxitektura Komitəsi sədrinin birinci müavini

**Zakir Qaralov** - Azərbaycan Respublikasının Baş prokuroru

**Məhəmməd Abbasov** - Bakı Şəhər İcra Hakimiyyətinin başçısı vəzifəsini icra edən

**Nəriman Quliyev** - Azərbaycan Respublikası Elmlər Akademiyasının vitse-prezidenti

**Oqtay Əsədov** - Abşeron Regional Səhmdar Su Cəmiyyətinin prezidenti

**Müslüm İmanov** - "Azərenerji" Səhmdar Cəmiyyətinin prezidenti

**Əlixan Məlikov** - "Azəriqaz" Səhmdar Cəmiyyətinin prezidenti

**Arif Həsənov** - Azərbaycan Respublikasının Seysmoloji Xidmət Mərkəzinin baş direktoru

2. Hökumət komissiyasına tapşırılsın ki, təbii fəlakətin nəticələrinin aradan qaldırılması işlərinin gedişi haqqında mütəmadi olaraq Azərbaycan Respublikasının Prezidentinə məlumat versin.

**Azərbaycan Respublikasının Prezidenti HEYDƏR ƏLİYEV**

Bakı şəhəri, 25 noyabr 2000-ci il
578

Azərbaycan Respublikasının Qanunvericilik toplusu .- 2000.- 30 noyabr, № 11.- S.4682-4683.